BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Sosial-siyasi elmlər seriyası 2015*

**UOT 321(091); 34(091)**

# ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNDƏ MİLLİ TƏHLÜKƏSİZLİK, SİRR VƏ ONLARIN QORUNMASI MƏSƏLƏLƏRİ

**E.Q.NƏBİYEV**
***Bakı Dövlət Universiteti***
***nebiyevelbay@gmail.com***

*Məqalədə dövlət tərəfindən sirr məsələlərinə xüsusi diqqət verilməsindən, dövlət sirrinin milli təhlükəsizliklə bağlılığından, ƏAT-ın çox hissəsinin dövlət sirri təşkil etməsindən, bu fəaliyyətlə əldə olunan məlumatların məxfiliyindən, şəxsi və ailə həyatına aid sirlərdən , onların qorunmasından bəhs olunur.*

**Açar sözlər:** milli təhlükəsizlik, əməliyyat-axtarış fəaliyyəti, dövlət sirri, məlumat, şəxsi həyata aid sirlər, əməliyyat-axtarış tədbirləri

Bütün tarixi dövrlərdə açıq informasiya ilə yanaşı məxfi informasiyalardan geniş istifadə olunmuşdur. Sonuncuya yayılmasına, ötürülməsinə qadağa qoyulan məlumatlar aiddir. Bu cür məlumatlar qapalı olmaqla sirr kateqoriyasına daxil edilir, onlara sirr statusu verilir və qanunla qorunur. Məlumatların qorunması onların xüsusi önəmliyini göstərən amildir.

İnformasiyanın məxfi saxlanılması və onun mühafizəsi təhlükəsizliyi təmin etmək zərurətindən irəli gəlir. Təhlükəsizliyin təmin olunması isə təkcə aşkar həyata keçirilən tədbirlərdən ibarət deyil, həm də qeyri-aşkar tədbirlərdən geniş istifadəni şərtləndirir.

Bu məsələnin əməliyyat-axtarış fəaliyyətinə (bundan sonra ƏAF) birbaşa aidiyyəti olduğundan bəzi mühüm məqamlara toxunmaq lazım gəlir. ƏAF bir çox halda qeyri-aşkar üsullarla həyata keçirildiyindən bu fəaliyyət növünün məxfiliyi xüsusi önəm kəsb edir. Məxfi, konfidensial məlumat ona görə sirdir ki, onun aşkarlanması və yayılması ciddi fəsadlara gətirib çıxara bilər. Əgər bu, dövlətlə bağlıdırsa, o zaman onun aşkarlanması insanların, cəmiyyətin və dövlətin təhlükəsizliyinə (milli təhlükəsizliyə) təhdid yarada, onu zəiflədə bilər və s. Milli təhlükəsizliyin təmin olunmasına xidmət edən informasiya ilə bağlı (məxfi) olmaqla dövlət sirri kateqoriyasına aiddir. Bu da dövlət sirrinin milli təhlükəsizliklə birbaşa bağlı olduğunu göstərir. Əgər aşkarlanan sirr insanın şəxsi və ailə həyatına, şərəf və ləyaqətinə toxunursa, o

zaman insanların mənəviyyatına, imicinə zərər vurula, onların həyatının bir çox sirli məqamları məlum ola, arzuolunmaz hallara yol açıla, münaqişələrin yaranmasına, hətta bəzən cinayətlərin baş verməsinə səbəb ola bilər. Bütün bunlar dövlət tərəfindən sirr məsələlərinə xüsusi diqqət verilməsini, onların qanunla qorunmasını şərtləndirir.

Dövlət sirrini, ilk növbədə mühüm dövləti əhəmiyyət kəsb edən hərbi, iqtisadi və siyasi xarakterli məlumatlar təşkil edir. Lakin milli təhlükəsizliyə ziyan vura bilən digər məlumatlar da var ki, onlar da dövlət sirrinə aid edilir. Bu cür məlumatların növləri qanunla müəyyən olunur. Belə ki, "Dövlət sirri haqqında" AR Qanununun 1.0.1-ci maddəsi dövlət sirrini təşkil edən məlumatlardan bəhs edərək bildirilir ki, "dövlət sirri - dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə edilən və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlardır".

Dövlət sirrini təşkil edən məlumatların məxfilik dərəcəsi onların yayılması nəticəsində təhlükəsizliyə vurula biləcək ziyanın ağırlıq dərəcəsindən asılıdır. Bu baxımdan, məlumatlar xüsusi əhəmiyyətli, tam məxfi və məxfi məlumatlara bölünür. Göstərilən sahələrdə dövlət sirrinin yayılması dövlətin təhlükəsizliyinə zərər vura bilər. Odur ki, dövlət tərəfindən ciddi mühafizə olunur.

Dövlət sirri məxfi olduğundan onun yayılmasına yol verilmir. "Dövlət sirrinin yayılmasının qarşısının alınması Qaydası"nın 2-ci maddəsinə görə "Dövlət sirrinin yayılması dedikdə, dövlət sirri təşkil edən məlumatın qeyri-qanuni yayılması, yəni səlahiyyətli vəzifəli şəxsin icazəsi olmadan dövlət sirri təşkil edən məlumatla şəxsin tanış edilməsi (olması), belə məlumatın açıqlanması və (və ya) dövlət sirri təşkil edən məlumat daşıyıcısının onun saxlanılmasına məsul olan şəxsin nəzarətindən çıxması (itirilməsi), habelə məlumatın texniki kanallarla sızması nəzərdə tutulur" [7, 298]. Dövlət bu cür məlumatların və onların daşıyıcılarının mühafizəsinə təminat verir.

Bu da cinayət qanunvericiliyində öz təsbitini tapır. Bu cür əməllərə yol verən şəxslər cinayət məsuliyyətinə cəlb olunur və ciddi cəzalandırılır.

Cinayət qanunvericiliyi sirr sayılan məlumatlara geniş yanaşaraq onların qəsdən və ehtiyatsızlıqdan yayılmasına görə məsuliyyət nəzərdə tutmuşdur. Buna Cinayət Məcəlləsinin bir sıra maddələrində rast gəlmək olar. Bunların bir qismi dövlət sirrinə aid olmaqla ağır dövləti cinayətlərlə - "Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər"lə bağlıdır (Dövlətə xəyanət - CM-nin 274, Casusluq - CM-nin 276, Dövlət sirrini yayma - CM-nin 284, Məzmununda dövləti sirri olan sənədləri itirmə - CM-nin 285-ci mad.). Göründüyü kimi, qanunverici bu istiqamətdə təhlükəsizliyin təmin olunması və bu kateqoriya cinayətlərlə mübarizə məsələsini önə çəkir. Bu istiqamətdə ƏAF-ın vəzifəsi bu cür cinayətlərin qarşısının alınmasını, aşkarlanmasını, açılmasını, onları törədənləri müəyyən edib məsuliyyətə cəlb olunmasını təmin etməkdir.

Deyilənlər onu göstərir ki, hər hansı bir informasiya, ilk növbədə insanların, cəmiyyətin və dövlətin təhlükəsizliyinə xidmət etməlidir. Bu baxımdan, müəyyən informasiyanın qapalı saxlanılması qanunauyğun haldır. Dövlətin bu məsələyə xüsusi diqqət verməsini elə ondan görmək olar ki, 1998-2005-ci illər ərzində AR-da dövlət sirrinin mühafizəsi üzrə xeyli sayda normativ hüquqi akt qəbul olunmuşdur. Bunlar aşağıdakılardır: "Dövlət sirri haqqında" AR Qanunu (7.IX.2004-cü il); "Məlumatların dövlət sirrinə aid edilməsi Qaydaları" (3.VI.2005-cü il); "Dövlət sirrinə aid edilən məlumatların siyahısı"(3.VI.2005-ci il); "Dövlət sirrini əks etdirən normativ hüquqi aktların yayılması və qüvvəyə minməsi qaydaları haqqında" Əsasnamə (27.IX.2003-cü il); "İnformasiyanı mühafizə vasitələrinin sertifikatlaşdırılması haqqında" Əsasnamə (22.XI.1998-ci il); "Dövlət hakimiyyət orqanlarında, idarə, təşkilat və müəssisələrində məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması" Qaydası (19.I.2005-ci il); Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanlarının, müəssisə, idarə və təşkilatlarının dövlət sirrinin mühafizəsi üzrə struktur bölmələri haqqında" Nümunəvi Əsasnamə (17.X.2002-ci il); "Dövlət sirri təşkil edən məlumatlarla işləməyi istisna edən xəstəliklərinin Siyahısı" (17.X.2002-ci il); "Vəzifəli şəxsin və ya vətəndaşın dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması və işləməyə buraxılmasının yenidən rəsmiləşdirilməsi" Qaydası (17.IX.2002-ci il); "Dövlət sirri təşkil edən məlumatların digər dövlətlərə verilməsi" Qaydası (15.III.2005-ci il); "Dövlət sirri təşkil edən məlumatlardan istifadə ilə bağlı işlərin görülməsi prosesində məlumatların mühafizəsinin təmin edilməsi" Qaydası (15.III.2005-ci il); "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dövlət sirri ilə işləməyə buraxılması" Qaydası (15.III.2005-ci il); "Dövlət sirri təşkil edən məlumatlardan istifadə edilməsi, informasiyanı mühafizə vasitələrinin yaradılması, habelə dövlət sirrinin mühafizəsi üzrə tədbirlər görülməsi və (və ya) xidmətlər göstərilməsi ilə bağlı işlərin icrasına müəssisə, idarə və təşkilatların buraxılması üçün icazənin alınması" Qaydası (15.III.2005-ci il); "Dövlət sirri təşkil edən məlumatın qeyri-qanuni yayılması üzrə ekspert rəyinin hazırlanması və təsdiq edilməsi" Qaydası (15.III.2005-ci il); "Dövlət sirrinin yayılmasının qarşısının alınması" Qaydası (15.III.2005-ci il); "Dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarında, müəssisə, idarə və təşkilatlarda dövlət sirrinin mühafizəsinin təmin olunmasına idarələrarası nəzarətin həyata keçirilməsi" Qaydalarıdır (15.III.2005-ci il).

Sadalanan qanunlar sırasında əsas Qanun olan "Dövlər sirri haqqında" AR Qanununun preambulasında göstərilir ki, "Bu Qanun Azərbaycan Respublikasının təhlükəsizliyini təmin etmək məqsədilə məlumatların dövlət sirrinə aid edilməsi, mühafizə və istifadə edilməsi, onların məxfiləşdirilməsi və ya məxfiliyin açılması ilə əlaqədar yaranan münasibətləri tənzimləyir" [7, 3]. Qanundan göründüyü kimi, təhlükəsizliyin təmin olunması bir məqsəd olaraq xüsusi vurğulanır.

Qeyd olunduğu kimi, sadalanan sahələr üzrə məlumatlar təhlükəsizliklə

birbaşa bağlı olduğundan dövlət sirri sayılır və onlardan xüsusi istifadə qaydası nəzərdə tutulur. "Dövlət sirri haqqında" AR Qanununun 5-ci maddəsində dövlət sirrini təşkil edən məlumatların siyahısı verilir və 5.4.-cü maddəsində kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahəsində məlumatlar sadalanır: "kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətinin qüvvə və vasitələri, mənbələri, metodları, planları və nəticələri haqqında, habelə bu fəaliyyətin maliyyələşdırılməsinin göstəriciləri haqqında, əgər bu göstəricilər sadalan məlumatları açıqlayırsa" (5.4.1); "kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlarla konfidensial əsaslarla əməkdaşlıq edən və əməkdaşlıq etmiş şəxslər haqqında" (5.4.2.); "dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin olunmasının təşkili, qüvvə və vasitələri, metodları haqqında, habelə bu fəaliyyətin maliyyələşdirilməsinin göstəriciləri haqqında, əgər bu göstəricilər sadalanan məlumatları açıqlayırsa" (5.4.3.); "şifrələnmiş, o cümlədən kodlaşdırılmış və məxfiləşdirilmiş rabitə sistemləri haqqında, şifrlər, şifrlərin işlənməsi və hazırlanması, onlarla təminat, şifrələmə və xüsusi mühafizə vasitələri haqqında, xüsusi təyinatlı informasiya-analitik sistemləri haqqında" (5.4.4.); "məxfi məlumatların mühafizəsi metodları və vasitələri haqqında" (5.4.5.); "dövlət sirrinin mühafizəsinin təşkili və faktiki vəziyyəti haqqında" (5.4.6.); "Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi haqqında" (5.4.7.); "Azərbaycan Respublikasında dövlətin müdafiəsinin, təhlükəsizliyinin və hüquq-mühafizə fəaliyyətinin təmin olunması ilə əlaqədar dövlət büdcəsinin xərcləri haqqında" (5.4.8.); "dövlətin təhlükəsizliyinin təmin olıunması məqsədilə keçirilən tədbirləri açıqlayan kadr hazırlığı haqqında" (5.4.9.).

Bir tərəfdən, ƏAF keçirilən zaman yayılmasına qanunla məhdudiyyət qoyulan məlumatlar əldə oluna bilər, digər tərəfdən isə bu fəaliyyət növünün həyata keçirilməsi özü belə bir çox halda məxfi səciyyə daşıyır. Şəxsi informasiya, onun ailəsinə aid informasiya konfidensial xarakter daşıya bilər. ƏAF-ın həyata keçirilməsi ilə əlaqədar şəxsi həyatın toxunulmazlığına dair əldə olunan məlumatların yayılması qadağandır. Məsələ ondadlr ki, ƏAF həyata keçirilərkən müəyyən informasiyadan istifadə etmək zərurəti yarana bilər. Belə hallarda milli təhlükəsizliyin əsas obyektlərinın – insanların, cəmiyyətin və dövlətin təhlükəsizliyi, qanunla qorunan maraqlar əsas götürülməlidir. İnformasiya yayılarkən: birincisi, bu cür maraqlara zərər dəyə biləcək məlumatların yayılmasına yol verilməməli; ikincisi, dövlət sirri, konfidensial məlumatlar yayılmamalıdır.

Milli təhlükəsizliyin göstərilən əsas obyektləri barədə məlumat əldə edilərkən və ondan istifadə edilərkən son dərəcə diqqətli və ehtiyatlı olmaq tələb olunur. Əldə olunan hər hansı məlumatı yuxarıda göstərilən tələblər nəzərə alınmadan yaymaq olmaz. Bu baxımdan müəyyən informasiyaların əldə olunmasına və yayılmasına qanunla müəyyən məhdudiyyətlər qoyulur və bu, qanunvericilik qaydasında tənzimlənir. Belə ki, "İnformasiya əldə etmək haqqında" AR Qanununun 35.1-ci maddəsinə görə "informasiya sahibi

informasiyanın əldə olunmasına məhdudiyyət qoymaq yolu ilə onu xidməti istifadə üçün nəzərdə tutulmuş hesab edə bilər.” Qeyd olunduğu kimi, dövlət sirləri ilə bağlı məlumatlar məxfi, vətəndaşların qanuni maraqlarının qorunması ilə bağlı məlumatlar isə gizli (konfidensial) xarakter daşıyır.

Məlumdur ki, məlumatların yayılmasında KİV və İnternet resursları müstəsna rol oynayır. Müasir dövrdə onlar əsas informasiya daşıyıcısıdır. Demək olar ki, bütün ölkələrdə geniş əhali kütləsinə informasiya əsasən KİV və İnternet informasiya ehtiyatları vasitəsi ilə çatdırılır. AR Konstitusiyasının 50-ci maddəsində məlumat azadlığından bəhs olunur və göstərilir ki, “Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır”.

Bununla belə müəyyən kateqoriya informasiya yayımlanarkən yuxarıda göstərilən yanaşmalar və qaydalar nəzərə alınmalıdır. İlk növbədə, onun milli təhlükəsizliyə və milli maraqlara zərər vurmayacağı müəyyən olunmalıdır. Bu baxımdan, KİV-in və jurnalistlərin üzərinə böyük məsuliyyət düşür. Müharibə şəraitində olan və tez-tez düşmən tərəfdən atəşkəsin pozulması ilə təxtibatla rastlaşan ölkəmizdə cəbhə bölgəsində baş vermiş hadisələr barədə məlumatlar hazırlanarkən və yayılarkən milli təhlükəsizlik məsələləri daim əsas götürülməlidir. Cəbhə bölgəsindən gələn hər bir məlumata xüsusi diqqətlə yanaşmaq tələb olunur.

Başqa sözlə desək, müəyyən hallarda (xüsusilə müharibə şəraitində olan dövlətlərdə) KİV-i maraqlandıran informasiyanın məhdudlaşdırılması, milli təhlükəsizlik baxımdan, yalnız işin xeyrinə ola bilər. Bu halda milli təhlükəsizlik maraqları (hərbi sirlərin qorunması) əsas götürülməklə KİV-in məlumat yayımı məhdudlaşdırıla bilər.

Dövlət maraqlıdır ki, KİV, media mənsubları onlara məlum olan təhlükəsizliyin təmin olunması ilə bağlı məlumatların məxfi qalmasına əməl etsinlər, peşə sirlərini saxlaya bilsinlər, onların yayılmasına imkan verməsinlər. Bu həm də “İnformasiya əldə etmək haqqında” AR Qanununun prinsipi və tələbidir. Belə ki, həmin Qanunun 6.1.6-cı bəndinə görə informasiya təqdim olunarkən insanların, cəmiyyətin və dövlətin təhlükəsizliyi qorunmalıdır. Ancaq bu qaydaya heç də həmişə riayət olunmur.

Bunu konkret hadisələrin timsalında dövlət rəsmilərinin çıxışlarından da sezmək olar. Belə ki, 2014-cü ilin avqust ayında Ermənistan-Azərbaycan dövlət sərhədində və qoşunların təmas xəttində yaşanmış ciddi gərginliklə əlaqədar olaraq bəzi kütləvi informasiya vasitələrinin, xüsusilə İnternet resurslarının qanunvericiliyin tələblərinə zidd və qeyri-peşəkar fəaliyyəti, habelə aidiyyəti dövlət orqanlarının informasiyanın verilməsinə məsul olan struktur bölmələrinin öz funksiyalarını lazımi qaydada yerinə yetirə bilməməsi üzə çıxdı və müzakirə olundu.

Bu məsələ milli təhlükəsizliklə (informasiya təhlükəsizliyi ilə) birbaşa bağlı olduğundan 29 avqust 2014-cü ildə AR Prezidenti Administrasiyasının rəhbəri yanında keçirilmiş dövlət orqanlarının informasiyanın verilməsinə

məsul struktur bölmələrinin və kütləvi informasiya vasitələri rəhbərlərinin müşavirəsində dövlət rəsmisi cəbhə xəttində vəziyyət barədə yalnış məlumatlar, hərbi hissələrimizin dislokasiyası və hərəkəti, həlak olmuş hərbiçilərin sayının süni şəkildə şişirdilməsi və bu mövzuda müxtəlif spekulyativ informasiyaların yayılması, cəbhə bölgəsində yaşayan əhali və ölkə ictimaiyyəti arasında çaşqınlıq yaratmaq cəhdləri, düşmənin maraqlarına xidmət edən məlumatların sizdırılması və s. barədə konkret faktlar göstərərək xəbərdarlıq etmişdir ki, dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı, dövlət tərəfindən mühafizə edilən və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlar dövlət sirri kateqoriyasına şamil edilir və onların ictimaiyyələşdirilməsi qanuna müvafiq məsuliyyət yaradır. Dövlət rəsmisi xüsusi olaraq vurğulamışdır ki, "formasından və məzmunundan asılı olmayaraq Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə istənilən qəsdə və ya qəsd cəhdlərinə, o cümlədən cəmiyyətin informasiya təhlükəsizliyini və milli maraqlarını təhdid edən hallara qarşı hüquqi çərçivədə zəruri addımlar atılmalıdır və xəbərdarlıq edirəm ki, bundan sonra da atılacaqdır" [14].

Bu məsələyə dövlət başçısı səviyyəsində münasibət bildirilməsi onun xüsusi önəm kəsb etdiyini və milli təhlükəsizliklə bağlı məsələlərin və məxfi məlumatların daim onun şəxsi nəzarətində olduğunu göstərir. Belə ki, 24 sentyabr 2014-cü ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" AR Prezidentinin Sərəncamı verildi. Sərəncam "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttinə bitişik ərazilərdə təhlükəsizlik tədbirlərini gücləndirmək, milli təhlükəsizlik və müdafiə mülahizələrinə görə xüsusi əhəmiyyət kəsb edən obyektlərin dislokasiyası, təyinatı, silahlı birləşmələrin strateji, operativ və səfərbərlik üzrə yerləşdirilməsi, hərbi hissələrin təşkilati strukturu, şəxsi heyətinin sayı barədə məlumatların, eləcə də "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa görə dövlət sirri təşkil edən hərbi sahəyə aid digər məlumatların kütləvi informasiya vasitələrində və İnternet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə yayılmasının qarşısını almaq məqsədi ilə" qəbul olunmuşdu.

Sərəncamla AR Müdafiə Nazirliyinin üzərinə mühüm vəzifə qoyuldu. Belə ki, 4.2-ci maddəsinə görə Nazirlik kütləvi informasiya vasitələrində və internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə cəbhəboyu zonadakı vəziyyətlə bağlı verilən məlumatların mütəmadi monitorinqini təmin etməli və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa görə dövlət sirri təşkil edən məlumatları yayan şəxsləri müəyyən edib onların qanunla müəyyən edilmiş məsuliyyətə cəlb olunmasını təşkil etməlidir [2]. Əlbəttə ki, ƏAF-ın subyektləri də bu istiqamətdə öz fəaliyyətini gücləndirməlidir.

Göründüyü kimi, dövlət sirri, hərbi sirr, xidməti sirr dövlətin və cəmiyyətin təhlükəsizliyinin təmim olunması üçün olduqca vacibdir və qanunla qorunur. Bu səbəbdən bu cür məsələlər yalnız dar kateqoriya şəxslərə məlum olmalı və daim nəzarətdə olmalıdır.

Göründüyü kimi, geniş mənada ictimai həyatın bütün mühüm sahələrini əhatə edən dövlət sirrinin bütün növləri (hərbi, kəşfiyyat, əks-kəşfiyyat və s.) milli təhlükəsizliklə bağlıdır. Bununla belə, dövlət sirrinin bir növü də sırf ƏAF-lə bağlıdır. Bu anlamda (dar mənada) əməliyyat-axtarış qanunvericiliyində nəzərdə tutulmuş ƏAF-ın vəzifələri ilə bağlı və bu vəzifələrdən irəli gələn məxfi məlumatlar (əməliyyat-axtarış tədbirlərinin (bundan sonra – ƏAT) təşkili və keçirilməsi, agentur fəaliyyət, əməliyyat məlumatlarının mənbələri və s.) dövlət sirri sayılır və onların yayılması qadağandır.

ƏAF-ın xüsusiyyətlərinə toxunan Ş. Hüseynov qeyd edir ki, "...əməliyyat-axtarış tədbirlərini həyata keçirərkən, onların təşkili və taktikası, tətbiq olunan qüvvə, vasitə və metodlar cinayəti hazırlayan və ya törədən şəxslərdən gizli saxlanılır [10,108].. O göstərir ki, "... qeyri-aşkar üsullarla əməliyyat-axtarış tədbirlərinin keçirilməsi zamanı istifadə edilən vasitələr, metodlar, mütəşəkkil cinayətkar qruplara, kriminoqen obyektlərə daxil edilmiş şəxslər, məxfi əməkdaşlar, onlara konfidensial qaydada yardım edən digər şəxslər, əməliyyat-axtarış tədbirlərinin təşkili və taktikası barədə məlumatlar dövlət sirrinə aid edilir və cinayət təqibi çərçivəsində aşkar istifadə etmək üçün (təhqiqatçıya, müstəntiqə və hakimə) verilə bilməz" [10, 154]. Bu da ƏAF-lə məxfi məlumatlar arasında sıx əlaqənin olduğunu göstərir. ƏAF yolu ilə əldə olunan məlumatlar, ardınca həyata keçirilən əməliyyat-axtarış tədbirləri, onların təşkili və taktikası və bu tədbirlər həyata keçirilərkən istifadə olunan qüvvələr, vasitələr dövlət sirri (xidməti sirr) sayılır və onların yayılmasının qarşısı alınır. "ƏAF haqqında" Qanunda ƏAF-a aid sirlərin qorunması bu zərurətdən irəli gəlir.

ƏAF-ın çox hissəsinin qeyri-aşkar üsullarla həyata keçirilməsi onun məxfi olmasına dəlalət edir. Bunu "ƏAF haqqında" Qanunun 14-cü maddəsinin VIII və IX bəndlərindən də görmək olar. Burada ƏAT-lərinin təşkili və həyata keçirilməsinin, habelə ƏAF sahəsində qanunvericilikdə nəzərdə tutulmuş digər məlumatların dövlət sirrinin bir növü kimi müvafiq qanunla müəyyən edilmiş qaydada mühafizə olunması, ƏAF-ı həyata keçirərkən dövlət sirri və xidməti sirr sayılan, ƏAF-ın təşkilinə, əməliyyat məlumatlarının mənbəyinə, üsul və metodlarına, eləcə də vətəndaşların şəxsi və ailə həyatına aid olan məlumatların aşkarlanmaması təsbit olunur.

ƏAF-ın keçirilməsinə gizli surətdə yardım göstərən şəxslər haqqında məlumatlar, ƏAF nəticəsində əldə edilmiş məlumatlar, onların mənbəyi və əldə edilməsi üsulları, ƏAF-ın subyektlərinə məxfilik əsasında kömək etməyə razılaşan şəxslər, şəxsin cinayətkar qruplara daxil edilməsi, ştatda olan məxfi əməkdaşlar barədə məlumatlar, gizli qaydada informasiyanın alınması məxfi saxlanılmalıdır. Məs. əməliyyat tədqiqində olan şəxsdən ƏAF üçün əhəmiyyətli

məlumatı əldə etmək məqsədilə müxtəlif üsullardan istifadə etməklə (telefon danışıqlarına, yazışmalarına nəzarət etməklə, fahişələrdən istifadə etməklə və s.) onun müəyyən sirləri məlum ola bilər ki, bu da məxfi məlumatlara aiddir.

Daxil olmuş məlumat, o cümlədən əməliyyat məlumatı əsasında qanunvericilikdə nəzərdə tutulmuş vəzifələrin icrasına başlanır, əməliyyat-axtarış tədbirləri keçirilir və müxtəlif mənbələrdən yeni məlumatların əldə olunması prosesi başlanır. ƏAF yolu ilə əldə olunmuş məlumat əsasında isə baş verə biləcək yeni cinayətin qarşısı alınır. Bu da bu kateqoriya məlumatların önəmli olduğunu bir daha göstərir. Həm də qeyd etmək lazımdır ki, əməliyyat məlumatı və onun mənbəyi məxfi saxlanılmalı və yayılmasına imkan verilməməlidir.

ƏAF üçün məlumatlar xüsusi əhəmiyyət kəsb etdiyindən onlara ciddi və diqqətlə yanaşmaq olduqca vacibdir. Məs. məlumatın (orada öz əksini tapan faktın) və hadisə yerində tapılan cinayətlə əlaqəsi olan bir əşyanın (və ya əşyaların) tutuşdurulması cinayətin (və ya cinayətlərin) açılmasına, cinayətkarın izinə düşməsinə kömək etməklə qiymətli nəticələrə gəlməyə imkan verə bilər. Təbii ki, bu cür məlumatlar məxfi saxlanılır. Onların aşkarlanması cinayətlərin aşkarlanması, açılması və qarşısının alınmasına yönəlmiş əməliyyat tədbirini poza, xeyli vaxt ərzində hazırlanan və keçirilən ƏAT-ın üstündən xətt çəkə bilər ki, bu da nəticə etibarı ilə təhlükəsizliyin təmin olunmasına, cinayətkarlıqla mübarizəyə (ağır cinayətlərin aşkarlanmasına, açılmasına, qarşısının alınmasına, törədənlərin müəyyən edilib məsuliyyətə cəlb olunması və cəzalandırılmasına), hüquq mühafizə və xüsusi xidmət orqanlarının nüfuzuna mənfi təsir göstərə bilər.

Bəzən müəyyən zamana (cinayət aşkarlana və cinayətkarlar ələ keçirilənə) qədər daxil olmuş məlumatın məxfiliyi qorunmalıdır, çünki məxfi məlumat əsasında əməliyyat tədbiri yolu ilə müəyyən obyekti (gizli törədilən cinayəti aşkar etmək üçün) nəzarətə götürmək zərurəti yaranır. Məs. psixiatriya xəstəxanasında törədilən cinayət barədə daxil olmuş əməliyyat məlumatı əsasında faktı yoxlamaq və aşkar etmək məqsədilə əməliyyat tədbiri keçirilə bilər. Təbii ki, belə hallarda əsas məqsəd və həyata keçirilən ƏAT məxfi saxlanılmalıdır, çünki məlumatın sızması hazırlanan və keçirilən ƏAT-ı poza, nəticə etibarı ilə cinayəti aşkarlamağa mane ola bilər (məs. xəstəxananın əməkdaşı həmin cinayətin iştirakçısı ola bilər). Düzgün təşkil olunmuş və məxfi saxlanılmış ƏAT nəticəsində, hətta konspirasiya qaydalarına ciddi əməl etməklə törədilmiş və ya törədilən cinayət aşkarlanır, onu törədənlər isə ifşa olunub məsuliyyətə cəlb olunur.

Göründüyü kimi, hazırlanan əməliyyat tədbirinin məxfi saxlanılması cinayətkarı və ya cinayətkarları yaxalamaq üçün istifadə oluna bilər. Bu cür məlumatın aşkarlanması isə hazırlanan tədbiri poza bilər. Məs. "təşkil olunmuş," yəni cinayətkarı maraqlandıran nəzarət altında verilmiş informasiyadan və ya dezinformasiyadan, onları müəyyən yerə cəlb etməklə pusquya salıb yaxalamaq məqsədilə istifadə oluna bilər. Təbii ki, belə informasiyanın məxfi

saxlanılması olduqca vacibdir.

Nəzərə almaq lazımdır ki, ƏAF-ın subyektlərinin malik olduğu məxfi informasiyaya cinayətkar qruplar da maraq göstərə bilər. Başqa sözlə desək, hüquq mühafizə orqanları ilə yanaşı cinayətkar qruplar da onları maraqlandıran informasiya axtarışında ola bilər. İstisna deyil ki, sonuncular üçün zəruri olan informasiyanı onlar həmin orqanlarda xidmət edən öz adamları (informatorları) vasitəsi ilə əldə etməyə çalışa bilər. Bu da informasiyanın sızmasının qarşısını almaq üçün zəruri tədbirlərin görülməsini şərtləndirir.

Belə hallarda "nəzarətli informasiya," yəni informasiyanın nəzarət altında şüurlu surətdə ötürülməsi üsulundan istifadə etmək təklif olunur. Belə ki, əməkdaşlar içində informatoru (məs. cinayətkar qrupa məlumatı ötürəni) tapmaq, onu aşkar etmək məqsədilə şübhələnilən şəxslərin hər birinə məxfi olaraq fərqli informasiya (və ya dezinformasiya) vermək və ya sızdırmaq, sonra isə nəticəsini gözləmək olar. Hansı informasiya nəzərdə tutulmuş ünvana çatarsa (bu özünü müəyyən formada bildirməlidir) onu kim tərəfindən ötürülməsini müəyyən etmək olar. Başqa sözlə desək, şüurlu olaraq güya "məxfi" informasiyanın (və ya dezinformasiyanın) sızdırılması təşkil olunur.

ƏAF-də əsas məsələlərdən biri bu fəaliyyət növünün vəzifələrinə uyğun olaraq müxtəlif mənbələrdən məlumatların əldə edilməsidir. Məs. cinayətin izinə düşmək üçün müxtəlif mənbələrdən məlumatların toplanması. Bu cür mənbələrdən biri məxfi saxlanılan informatorlardır. Onların köməyi ilə sosial anomal mühitə nəzarət oluna bilər. Lakin hər daxil olan məlumata dərhal inanmaq da düzgün olmazdı. Buna görə,  onların verdyi məlumatın həqiqətə uyğun olub olmadığını yoxlamaq lazım gəlir. Bu baxımdan, informatorların sayının çox olması, məlumatın müxtəlif mənbələrdən əldə olunması verilmiş məlumatın doğruluğunu müəyyən etməyə köməklik göstərə bilər.

Bu xüsusda "ƏAF haqqında" Qanunda bu məsələyə xüsusi diqqət verilməsi vacib məsələlərdən biridir. Bu yanaşmanı əsas götürən qanunverici Qanunun 6-cı maddəsində ƏAF nəticəsində əldə edilmiş məlumatların, onların mənbələrinin və əldə edilməsi üsullarının yayılmamasını, hər hansı şəxslə əməkdaşlığın məxfiliyinin və anonimliyinin təmin olunmasını, öz qulluq mövqeyinə görə məxfi məlumatlara və ya xüsusi icazə tələb edən işlərə buraxılan şəxslərin yoxlanılmasını tələb edir.

Cinayət prosesində də sirr təşkil edən məlumatlara dair xüsusi qayda nəzərdə tutulmuşdur. Cinayət prosesində sirlərin konfidensiallığı və onların qorunması məsələlərinə toxunan F.Abbasova belə sirlərin üç kateqoriyasının olduğunu (şəxsi və ailə sirlərini, dövlət sirrini, peşə və kommersiya sirrini) qeyd edərək göstərir ki, sirr statisunda çıxış edən məlumat xüsusi prosessual qaydada əldə edilir, ötürülür və qiymətləndirilir [3, 389].

Beləliklə, ƏAF-lə əhatə olunan və qanunvericilkdə nəzərdə tutulmuş ƏAT-ləri, eləcə də digər məlumatlar dövlət sirri sayılır və mühafizə olunur.

Sirlərin digər qismi isə insanların şəxsi və ailə həyatına aiddir. Hər bir dövlətin öz sirri olduğu kimi hər bir şəxsin və ailənin də öz sirləri var və bunlar

fərdi məlumatlar kateqoriyasına aiddir. Belə sirlərə hörmətlə yanaşmaq tələb olunur. Bu cür məlumatların toxunulmazlığı qanunvericilklə təmin olunur. Şəxsi və ailə həyatına aid məlumatların sirr olaraq qorunmasını AR Konstitusiyasının 32-ci maddəsindən sezmək olar. Burada göstərildiyi kimi, hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Şəxsi həyatın qorunması üçün sirr anlayışının qanunvericilik sisteminə daxil edilməsini qeyd edən Z.Əsgərov yazır ki, " sirr sadəcə olaraq şəxsi həyatla bağlı deyil, daha geniş anlayışdır və zəruri hallarda fəaliyyət və ya başqa hüquqi məsələ ilə bağlı cəmiyyətə informasiya ötürülməsinin qarşısını alan xüsusi hüquqi institutdur" [9, 159].

İnsanın şəxsi həyatına aid sirlər özündən və bəzən ən yaxınlarından başqa heç kəsə bildirmək istəmədiyi məsələlər barədə konfidensial məlumatlardır. Belə məlumatlar yalnız qanunla nəzərdə tutulmuş hallarda aşkarlana bilər. "İnsanın həyat tərzi, düşüncələri, şəxsi qeydləri, tutduğu gündəlik, yazışmaları, telefon danışıqları, övladlığa götürmə sirri onun şəxsi həyatının sirrinə aiddir". Bu cür sirlər (şəxsi, dövlət, qulluq, hərbi, peşə növlərində) heç kimə etibar olunmayan və olduqca şəxsi xarakter daşıyan sirlərdir [6,105]. Təbii ki, bu cür məlumatların ictimailəşdirilməsi yalnız şəxsin öz razılığı ilə baş tuta bilər. Qanunverilik də elə bu mövqedən çıxış edir.

Bununla əlaqədar Ş.Hüseynov düzgün olaraq qeyd edir ki, "şəxsi həyatın toxunulmazlığına, şəxsi və ailə sirrinə aid məlumatların yayılmasına qoyulan qadağa nəinki əməliyyat-axtarış fəaliyyətini həyata keçirən vəzifəli şəxslərə, habelə hüquq-mühafizə orqanlarına, o cümlədən, gizli surətdə yardım edən digər şəxslərə də aiddir" [10, 103-104].

Konstitusiyanın 32-ci maddəsini inkişaf etdirən "ƏAF haqqında" Qanunda şəxsi və ailə həyatına aid sirlərin qorunmasına xüsusi diqqət verilir. Belə ki, Qanunun 4-cü maddəsinin 2-ci bəndində göstərilir ki, "hər hansı şəxsin razılığı olmadan onun şəxsi həyatının toxunulmazlığına, o cümlədən şəxsi və ailə həyatının sirrinə, habelə onun şərəf və ləyaqətinə dair əldə edilmiş məlumatları yaymaq qadağandır".

Bu məsələ xüsusi önəm kəsb etdiyindən bir vacib məqamı qeyd etmək lazımdır. Məlum olduğu kimi, insanların şəxsi həyatı onların mənəviyyatı ilə bağlıdır. Fikir, söz və vicdan azadlığı "insanın daxili aləminin, xüsusilə də onun intellektual-mənəvi tərəflərinin təzahür formalarıdır" [9,166]. Şəxsi həyata və ailə həyatına hörmət hüququ 1950-ci il tarixli "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiya"sının 8-ci maddəsində öz əksini tapmışdır. Diqqəti çəkən məqam odur ki, bir tərəfdən, insanların şəxsi və ailə həyatı qorunur, digər tərəfdən, istisna hallar nəzərdə tutulur. Belə ki, həmin maddənin 2-ci bəndinə görə "Milli təhlükəsizlik və ictimai asayiş, ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaş və ya cinayətlərin qarşısını almaq üçün, sağlamlığı, yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, bu hüququn

həyata keçirilməsinə dövlət hakimiyyəti orqanları tərəfindən müdaxiləyə yol verilmir.”

Eyni yanaşma sözü gedən Konvensiyanın 10-cu maddəsində də müşahidə olunur. Burada öz fikrini ifadə etmək azadlığı hüququ təsbit olunmuşdur. “Bu hüquqa öz rəyində qalmaq azadlığı, dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneə olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir.” Həmin maddənin 2-ci hissəsində isə bu azadlıqların məhdudlaşdırılması nəzərdə tutulur. Belə ki, “Bu azadlıqların həyata keçirilməsi milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün, digər şəxslərin nüfuzu və ya hüquqlarının müdafiəsi üçün, gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısını alımaq üçün və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən rəsmiyyətə, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər.”

Göründüyü kimi, öz fəaliyyətinin spesifikliyinə (qeyri-aşkar üsullarla həyata keçirilməsi ilə əlaqədar) görə insanların şəxsi və ailə həyatına aid sirlərlə daha çox rastlaşan sahələr ƏAF və cinayət prosesi sahələridir. Bu baxımdan bu sferalarda qanunvericinin göstərilən məsələyə xüsusi diqqət verməsi, dövlət sirrini təşkil edən məlumatlar sırasında ƏAF sahəsinə aid məlumatların yer alması özü bir qanunauyğunluqdur. Bu fəaliyyət növünün əsasən qeyri-aşkar üsullarla həyata keçirilməsi cinayətkarlıqla mübarizə zərurətindən doğur. ƏAF çərçivəsində tətbiq olunan ƏAT, onların uğurla nəticələnməsi bu tədbirlərin məxfi saxlanılıb qəfləti həyata keçirilməsindən çox asılıdır.

ƏAF-ın həyata keçirilməsi prosesində onun subyektinə alınması qanunla məhdudlaşdırılan informasiyalar məlum ola bilər. Belə ki, ƏAF bir çox halda məxfi (qeyri-aşkar) üsullarla həyata keçirildiyindən əldə olunan məlumatlar insanların şəxsi və ailə həyatına aid olmaqla gizli (konfidensial) xarakter daşıyır. Bu da bir halda şəxsi və ailə sirrinə, digər halda isə peşə və kommersiya sirrinə aid ola bilər.

“İnformasiya əldə etmək haqqında” AR Qanununun 6.2.-ci maddəsində görə “əməliyyat-axtarış tədbirləri keçirilən hallar istisna olmaqla, şəxsin onun xəbəri olmadan və ya etirazına baxmayaraq kütləvi informasiya vasitələrinin nümayəndələri və başqa şəxslər tərəfindən izlənilməsi, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qalması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur.” Bu da onu göstərir ki, müəyyən istisnalar olmaqla şəxsin şəxsi həyatı onun öz daxili işidir və onun icazəsi və ya razılığı olmadan heç kəs buna müdaxilə edə bilməz.

Həmin Qanunun 38-ci maddəsində əldə olunmasına məhdudiyyətlər qoyulan şəxsi və ailə həyatına dair məlumatlar sadalanır. Bu sırada şəxsi həyata dair məlumatlardan biri 38.2.3-cü maddəsində göstərilir. Bildirilir ki, “cinayət işləri və ya digər hüquq pozuntularına dair işlər üzrə icraatın gedişində

toplanmış informasiyalar – açıq məhkəmə iclasınadək və ya hüquq pozuntusuna dair məhkəmə qərarı çıxarılanadək, yaxud insanların mənəviyyatı, şəxsi və ailə həyatının müdafiəsi, yetkinlik yaşına çatmayanın, zərərçəkənin və ya şahidin mənafeyi, yaxud ədalət mühakiməsinin həyata keçirilməsi üçün tələb olunan hallarda" məlumatlar xidməti istifadə üçün nəzərdə tutulur.

Həmin Qanunun 38.5-ci maddəsində əldə olunmasına məhdudiyyətlər qoyulan ailə həyatına dair məlumatlar sadalanır. Bu sırada göstərilir ki, əgər: "informasiyanın əldə olunması cinayətin qarşısını almağa, cinayətkarı tutmağa və ya cinayət işində həqiqəti müəyyənləşdirməyə mane olursa" (38.5.2.), "informasiya dövlət təhlükəsizliyi naminə toplanıbsa" (38.5.4) onların yayılması yolverilməzdir.

Lakin müasir şəraitdə şəxsi və ailə məlumatlarının sızması, kənar şəxslərə məlum olması və onlardan qadağan olunmuş məqsədlər üçün istifadə olunması təhlükəsi mövcuddur. Belə ki, xakkerlər internet saytlarında olan şəxsi məlumatları oğurlaya və şantaj edərək onları açıqlamaqla hədələyə bilər. Bu cür məlumatların açıqlanması isə ciddi fəsadlara yol aça bilər. Hüquq mühafizə orqanları bu istiqamətə də nəzarəti gücləndirməlidir.

Konstitusiyanın 32-ci maddəsində təsbit olunmuş şəxsi toxunulmazlıq hüququ cinayət qanunvericiliyində şəxsi hüquq və azadlıqlara qəsd edən cinayətlər (yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozma (155-ci mad.), şəxsi həyatın toxunulmazlığını pozma (156-cı mad.) və s.) kimi göstərilmişdir. CM-nin 155-ci maddəsi "təkcə şəxsi sirri və ailə həyatının sirrini mühafizə etmir, burada obyekt bir qədər genişdir və o, yazışmaların, telefon danışıqlarının və digər məlumatların istənilən sirrini mühafizə altına alır" [1, 553].

Ailənin mənafelərinə zərər vuran cinayətlərdən biri CM-nin 175-ci mad. ilə nəzərdə tutulmuş övladlığa götürmə sirrini yayma cinayətidir. Bu cür sirlərin yayılması bir sıra ağır fəsadlara gətirib çıxara bilər. Məs. övladlığa götürülmüş şəxs bunu bildıkdə depresiyaya düşə, psixi travma keçirə, özünə qəsd edə bilər və s. Bununla əlaqədar, İ.Ağayev qeyd edir ki, "bəzi hallarda övladlığa götürülənə götürmə faktı məlum olur (məsələn, əgər onun razılığı tələb olunursa), lakin bu, həmin faktı üçüncü şəxslərə yayan şəxsin məsuliyyətini istisna etmir. Bu hərəkətlərin ictimai təhlükəlilik xarakteri nəinki övladlığa götürülənin psixi travma ala bilməsi, həm də ailənin ətrafında mühakimələrin, dedi-qodunun yaranması ilə əlaqədardır" [1, 565].

Şəxsi və ailə sirlərinin qorunması da cinayət qanunvericiliyində də diqqət mərkəzində olan məsələlərdəndir. Bunları Kommersiya və ya bank sirri olan məlumatları qanunsuz yolla əldə etmə və ya yayma (CM-nin 202-ci mad.), Təhqiqat və ya ibtidai istintaq məlumatlarını yayma (CM-nin 300-cü mad.), Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma (CM-nin 302.I. və 302.2.-ci mad.), Cinayət prosesində iştirak edən şəxslər barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yayma (CM-nin 316-cı mad.) cinayətləri təşkil edir. Məs. şəxsi sirlərdən biri kommersiya sirridir.

“Kommersiya sirri haqqında” AR 4 dekabr 2001-ci il tarixli Qanununda (2-ci mad.1-ci bəndində) göstərilir ki, kommersiya sirri – hüquqi və fiziki şəxslərin istehsalat, texnoloji, idarəetmə, maliyyə və başqa fəaliyyəti ilə bağlı məlumatlardır ki, sahibinin icazəsi olmadan açıqlanması onların qanuni maraqlarına ziyan vura bilər.

“ƏAF haqqında” Qanuna əsasən təqdim olunan sənədlərdəki məlumatların məxfiliyinin təmin olunması prokurorlara həvalə olunur.

Beləliklə, dövlət sirrinə geniş və dar mənada yanaşmaq olar. Geniş anlamda dövlət sirri milli təhlükəsizliyin təmin edilməsi ilə, dar mənada isə ƏAF-lə sıx bağlıdır. Məxfi xarakter daşıyan və təhlükəsizliklə birbaşa bağlı olan dövlət sirlərinə, eləcə də konfidensial xarakterli məlumatlara ciddi yanaşılmalı və onların yayılmasının qarşısı alınmalıdır. Bu mühüm vəzifənin yerinə yetirilməsi bütün dövlət orqanlarının, ilk növbədə isə hüquq mühafizə və xüsusi xidmət orqanlarının üzərinə qoyulur. Ancaq məlumatların yayımlanması ilə bilavasitə məşğul olan qurumlar (KİV) bu məsələyə görə xüsusi məsuliyyət daşıyırlar. Sonuncular əldə etdikləri məlumatların ilk növbədə milli təhlükəsizlik və milli maraqlar baxımdan ölçüb biçməli, müvafiq qanunların tələblərini rəhbər tutmalı və yalnız bundan sonra nə cür və hansı formada yayımlanmasına qərar verməlidir. Vətəndaşların şəxsi və ailə sirlərinə də ciddi, ehtiyatla və məsuliyyətlə yanaşmaq tələb olunur. Bu zaman onlar ciddi məsuliyyət daşıdığını unutmamalıdır.

Ancaq bu, həm də hüquq mühafizə və xüsusi xidmət orqanlarının daim ayıq-sayıq olmasının vacibliyini şərtləndirir. Bu baxımdan ƏAF-ın bir neçə funksiyası diqqəti çəkir: 1.Onlar “ƏAF haqqında” Qanunla nəzərdə tutulmuş ümumi vəzifələri çərçivəsində cinayət sayılan dövlət sirlərinin və konfidensial məlumatların yayılmasının qarşısını almalı, bu növ cinayətləri vaxtında aşkarlamalı, açılması üçün zəruri tədbirləri həyata keçirməli və törədənləri müəyyən etməlidir. 2. Öz təbiətinə görə ƏAF-ın spesifik (qeyri-aşkar və bu səbəbdən məxfi) fəaliyyət növünü həyata keçirməsi özü belə, bir halda dövlət və xidməti sirdir (ƏAT-ın təşkili və həyata keçirilməsi, informasiyanın və onun mənbələrinin məxfiliyi, ƏAF-ın subyektləri ilə məxfilik əsasında əməkdaşlıq edən şəxslər və s.), digər halda isə şəxsi və ailə sirləri ilə rastlaşdığından onların yayılmasına imkan verməməlidir. Bu xüsusda qeyd etmək lazımdır ki, yuxarıda göstərilən qanunvericilik aktlarının, o cümlədən “ƏAF haqqında” Qanunun məzmunundan belə nəticəyə gəlmək olar ki, qanunvericilik əməliyyat-axtarış fəaliyyətində iştirak edən şəxslərin hüquqlarının təminatçısı kimi çıxış edir.

**ƏDƏBİYYAT**

1. Ağayev İ. Azərbaycan Respublikasının Cinayət hüququ. Dərslik. Bakı, 2010, 832 s.
2. “Azərbaycan” qəzeti, 2014, 25 sentyabr.
3. Abbasova F. Cinayət prosesi (Ümumi hissə). Dərslik (yenidən işlənmiş 2-ci nəşr). Bakı: “Zərdabi LTD” MMC, 2015, 412 s.
4. AR Cinayət Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2000, 350 s.

5. AR Konstitusiyası. Bakı, 2009, 71 s.
6. Cəfərov İ. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı: Hüquq ədəbiyyatı, 2004, 552 s.
7. "Dövlət sirrinin mühafizəsi üzrə normativ hüquqi aktlar." Bakı: Vətən, 2005, 312 s.
8. "Əməliyyat-axtarış faəliyyəti haqqında" 28.X.1999-cu il 728-1Q saylı AR Qanunu
9. Əsgərov Z. Konstitusiya hüququ. (Dərslik). Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşri. Bakı: BDU, 2011, 760 s.
10. Hüseynov Ş. Əməliyyat-axtarış fəaliyyətinin əsasları. Mühazirələr toplusu (Dərs vəsaiti) Bakı: Mütərcim, 2008, 372 s.
11. "İnformasiya əldə etmək haqqında" 30.IX 2005-ci il 1024-IIQ saylı AR Qanunu
12. "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" 1950-ci il Konvensiyası.
13. "Milli təhlükəsizlik haqqında" 29.VI. 2004-cü il 712-IIQ saylı AR Qanunu
14. "Yeni Azərbaycan" qəzeti 2014, 30 avqust.

## ВОПРОСЫ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ, ТАЙНЫ И ИХ ОХРАНА В ОПЕРАТИВНО-РОЗЫСКНОЙ ДЕЯТЕЛЬНОСТИ

**Э.Г.НАБИЕВ**

**РЕЗЮМЕ**

В статье рассматриваются вопросы связанные с охраной государственной тайны, говорится о непосредственной связи государственной тайны с национальной безопасностью, о том, что большая часть ОРД представляет собой государственную тайну, о секретности информации полученной путем ОРД, о тайне личной и семейной жизни и их охране.

**Ключевые слова:** национальная безопасность, оперативно-розыскная деятельность, государственная тайна, информация, секреты личной жизни, оперативно-розыскные мероприятия.

## NATIONAL SECURITY, SECRET AND THEIR PROTECTION ISSUES IN OPERATIVE-SEARCH ACTIVITY

**E.G.NABIYEV**

**SUMMARY**

The article deals with the protection of state secrets, commitment of state secrets with national security, confidentiality of the information obtained from this activity, secrets related to personal and family lives and their protection.

**Key words:** national security, operative-search activity, state secret, information, secrets related to personal life, operative-search events.